**TƏSDİQ EDİRƏM**

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri**

**__________________prof. Famil Mustafayev**

**“_____”________________2019-cu il**

**5706.01 - Azərbaycan dili ixtisası üzrə fəlsəfə doktoru imtahanının**

# P R O Q R A M I

## 1. Fonetika

**Fonetikanın mövzusu və məqsədi.**. Fonetikanın növləri. Azərbaycan dilinin fonetik sistemi.

Fonetika dilin ən kiçik vahidi olan fonemi – sözdə məna fərqi yaradan səsi, dilin səs sistemini, fonetik hadisə və qanunları öyrənən şöbə kimi. Səs, səsin akustik, fizioloji cəhətləri. Səslərin təsnifat meyarları. Səsin ictimai əlamətləri. Səs və fonem, fonem variantları.

**Azərbaycan dilinin saitlər sisteminin təsnifat prinsipləri.** Azərbaycan dili saitlərinin etimoloji təhlili. Ümumtürk, yaxud göytürk saitləri və onların Azərbaycan dilində taleyi. Alınma sözlərdəki saitlər və onların Azərbaycan dilində taleyi.

**Azərbaycan dilinin samitlər sisteminin təsnifat prinsipləri.**. Azərbaycan dili samitlərinin etimoloji təhlili. Ümumtürk, yaxud göytürk samitləri və onların Azərbaycan dilində taleyi. Alınma sözlərdəki samitlər və onların Azərbaycan dilində taleyi.

**Fonetik transkripsiya.** Fonetik və fonematik transkripsiya.

**Heca.** Hecanın növləri və tipləri. Nitq axınında heca üçbucaqlarının rolu. Hecalanma zamanı heca növlərinin dəyişkənliyi. Azərbaycan dili heca sisteminin inkişaf tarixi. Açıq hecalılığa meyil, örtüsüz hecalılığa meyil.

**Ahəng qanunu**. Ahəng qanununun növləri: saitlərin ahəngi, saitlərlə samitlərin ahəngi, samitlərin ahəngi.

**Fonetik hadisələr:** səs uyuşması (assimilyasiya), səs fərqləşməsi (dissimilyasiya), səs artımı (proteza), səs düşümü (eliziya) və yerdəyişmə (metateza). Fonetik hadisələri doğuran səbəblər. Bitişdirici samitlərin səs artımının növü kimi qanuna çevrilməsi. Azərbaycan dilində məhdud dairədə özünü göstərən heca ilə bağlı bəzi fonetik hadisələr.

**Vurğu.** Nitq parçalarının mənalı səslənmə əlamətləri: vurğu və intonasiya. Vurğu və onun növləri;. Heca vurğusu sözlərdə və şəkilçilərdə. Azərbaycan dilində vurğunun növü, yeri və təbiəti.. Azərbaycan dilində vurğunun sonuncu hecaya düşmədiyi hallar. Söz birləşmələrində vurğu, mürəkkəb sözdə vurğu.

**İntonasiya.** İntonasiyanın mahiyyəti. İntonasiyanın vəzifələri. İntonasiyanın tipləri: nəqli intonasiya, əmr intonasiyası, sual intonasiyası, nida intonasiyası. Sadə və mürəkkəb cümlənin avazlanması. Durğunun tənzimlənməsi.

**Orfoepiya**. Ədəbi tələffüzün mənbələri: dialektlər, yazı, əcnəbi dillər. Yazı ədəbi tələffüz normalarını müəyyənləşdirən əsas vahid kimi.

Tələffüz şəraiti. Tələffüz vasitələri. Lüğəvi şəraitdə tələffüz: Müxtəlif mövqelərdə saitlərin tələffüzü. Müxtəlif mövqelərdə samitlərin tələffüzü. Müxtəlif çalarlıqlarda tələffüz olunan kar və cingiltili samitlər. Əsasən, öz məxrəcinə müvafiq tələffüz olunan kar və cingiltili samitlər.. Alınma sözlərin tələffüz normaları.

Qrafik şəraitdə tələffüz: qrafik şəraitdə tələffüz olunan qısaltma sözlərin növləri.

Qrammatik şəraitdə tələffüz: morfoloji və sintaktik şəraitdə tələffüz. Söz və şəkilçi qovuşuğunda tələffüz, iki söz qovuşuğunda tələffüz. Ədəbi tələffüzün pozulma mənbələri: Şivələr, yazı, ənənəvi və əcnəbi mənbələrin ədəbi tələffüzə təsiri. Şivələr və əcnəbi sözlərin ədəbi tələffüzün pozulmasına təsiri.

**Orfoqrafiya.** Azərbaycan yazısının və əlifbasının tarixi. Orfoqrafik normaların yazıda əksi. Azərbaycan orfoqrafiyası qarşısında qoyulan tələblər. Orfoqrafiyanın prinsipləri. Şəkilçilərin yazılışı. Defis işarəsinin orfoqrafik mahiyyəti. Ayrı, bitişik və defislə yazılan sözlər. Baş hərfi böyük yazılan sözlər. Abreviatura yazılış qaydaları. Yazıda söz hissəsinin sətirdən sətrə keçirilməsi qaydaları.

### Əsas ədəbiyyat


1. Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı, Maarif, 1984, 270 s.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I hissə. Fonetika, orfoepiya, orfoqrafiya. Bakı, Şərq-Qərb,2007, 256 s.
3. Xəlilov B. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı: Nurlan, 2007, 310 s.
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, Nurlan,2003, 450 s.
5. Yusifov M. Azərbaycan dili fonetikasının əsasları. Bakı, Elm və təhsil, 2012, 318s.
6. Müasir Azərbaycan dili. I cild, Bakı, Elm, 1978, 322 s.


### Əlavə ədəbiyyat


1. Axundov A. Azərbaycan dilinin fonemlər sistemi. Bakı: Maarif, 1978., 301 s.
2. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, 2013.
3. Azərbaycan dili haqqında Dövlət fərmanları. Bakı, 2001
4. Bəşirova A. Azərbaycan dilində vurğu. Bakı, 1996, 112 s.
5. Veysəlov F. Fonetika və fonologiya məsələləri. Bakı: Maarif, 1993, 192 s.


## 2. Leksikologiya

**Leksikologiya dilin lüğət tərkibini öyrənəndilçilik şöbəsi kimi.** Leksikologiya və onun predmeti və obyekti, əsas vəzifələri, başqa şöbələrlə əlaqəsi.. Leksikologiyanın növləri. Söz leksikanın əsas vahidi kimi. Saf və hibrid sözlər. Forma və məzmun etibarilə söz qrupları.

Müasir Azərbaycan ədəbi dilinin lüğət tərkibi. Lüğət tərkibi və əsas lüğət fondu. Dilin lüğət tərkibinin əsas və əlavə hissəsi.

**Mənşə cəhətdən müasir Azərbaycan dilinin lüğət tərkib**i. Əsl Azərbaycan sözlərinin tarixi və inkişafı. Alınma sözlər. Alınmaların növləri. Dilimizə başqa dillərdən keçən sözlərin fərqli fonetik xüsusiyyətləri. Ərəb və fars dillərindən keçən sözlərin əsas xüsusiyyətləri. Rus və Avropa dillərindən keçən sözlərin əsas xüsusiyyətləri. Qafqaz

dillərindən keçən sözlərin əsas xüsusiyyətləri. Müasir Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində alınmaların rolu.

**İşlənmə dairəsinə görə söz qrupları.** Ümumişlək sözlər. Qeyri-ümumişlək sözlər. Köhnəlmiş sözlər: arxaizmlər və tarixizmlər. Neologizmlər və onların əsas mənbələri. Dialekt və şivələr. Azərbaycan dilçiliyində dialektlərin təsnifi. Peşə sənət sözləri. Ekzotik sözlər. Varvarizmlər. Vulqar sözlər. Loru sözlər. Poetik sözlər. Slenqlər, jarqon və arqo sözlər. Ümumi və xüsusi sözlər. İlkin və törəmə sözlər. Qohum sözlər.

**Terminologiya.** Termin və onun əsas xüsusiyyətləri. Terminlərin elmi və publisistik üslublarda rolu. Termin və terminoid anlayışı. Alınma terminlər. Dialekt və şivələr hesabına milli terminlərin yaradılması. Terminlərin seçilməsi və mənimsənilməsi üsulları.

**Semasiologiya.** Söz, məfhum və konsept anlayışı. Konsept anlayışı dünya və Azərbaycan dilçiliyində. Söz və məna. Sözün leksik və qrammatik, tam və natamam mənaları.İlkin və törəmə mənalar. Məcazi mənada işlənən sözlər. Məcazların üslubi imkanları. Təkmənalı və çoxmənalı sözlər.

Sözlərin məna qrupları. Omonim sözlər. Enentosemiya hadisəsi. Sinonim sözlər. Antonimlər. Tabu sözlər. Paronim sözlər. Omonimə bənzər sözlər: omofonlar, omoqraflar, onoformlar.

**Etimologiya.** Elmi və xalq etimologiyası. Müasir Azərbaycan ədəbi dilində etimoloji tədqiqatlar.

**Onomalogiya.** Onomastika və onu öyrənən şöbə - onomalogiya. Dildəki xüsusi sözlərin məcmusu. Xüsusi sözlərin əmələgəlmə yolları. Onomastik vahidlərin növləri. Onomastik vahidlərin üslubi xarakteri. Onomastik vahidlərin milli səciyyəliliyi.

**Frazeologiya.** Frazeologizmlər. Azərbaycan dilçiliyində frazeoloji vahidlərin təsnifi problemi. Sabit və sərbəst söz birləşmələri. Frazeoloji vahidlərin tipləri. Frazeoloji sabit ifadə və ibarələr. Atalar sözləri və məsəllər. Frazeoloji vahidlərin milli səciyyəliliyi.

**Leksikoqrafiya.** Türk dillərinin leksikoqrafiya tarixi. Azərbaycan leksikoqrafiyası. Lüğətlər və onların əhəmiyyəti. Lüğətlərin quruluşu və onların tərtibi üsulları: əlifba üsulu və yuva üsulu. Neologizmlərin izahlı və orfoqrafiya lüğətlərində əksi. Lüğətlərin növləri. Filoloji və ensiklopedik lüğətlər. Azərbaycan dilinin izahlı lüğəti. Orfoqrafiya lüğətlərinin tarixi inkişafı. Orfoepiya lüğəti. Dialektoloji lüğət. Sinonimlər lüğəti. Omonimlər lüğəti. Antonimlər lüğəti. Frazeoloji lüğətlər. Terminlər lüğəti. Tərcümə lüğətləri: ikidilli və çoxdilli lüğətlər. Azərbaycanda son dövrlər nəşr olunan lüğətlər.

**Derivatologiya.** Sözyaratma prosesi və lüğət tərkibinin zənginləşməsi problemi. Azərbaycan dilində sözyaratma yolları. Dilin daxili imkanları hesabına söz yaratma. Leksik, semantik yolla sözyaratma. Morfoloji yolla sözyaratma. Sintaktik yolla sözyaratma: mürəkkəb sözlərin yaranmasının əsas xüsusiyyətləri. Mürəkkəb sözlərin yazılış xüsusiyyətləri və nitq hissələrinə görə təsnifi. Lüğət tərkibinin alınmalar hesabına zənginləşməsi. Kalka üsulu ilə sözyaratma.

## Əsas ədəbiyyat


1. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə. Bakı, 1982, 216 s.
2. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1988, 306 s.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, “Nurlan”, 2008, 444 s.
4. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. Bakı, “Maarif”, 1985.
5. Müasir Azərbaycan dili. II cild, Bakı, “Elm”, 1980, 239 s.


## Əlavə ədəbiyyat


1. Bayramov A. Azərbaycan onomastikası. Bakı , 2015, 319 s.
2. Bayramov İ. Müasir Azərbaycan dilində lüğət tərkibinin zənginləşdirilməsi yolları. Bakı, 1999.

3. Paşayeva G. Azərbaycan dilinin terminologiyasının inkişafında alınmalar (2000-2010). Bakı, Azəri, 2018, 180 s.
4. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, “Maarif”, 978, 174 s.
5. Sadıqova S. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı, Bakı, "Elm", 2005, 348 s.
6. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası. Bakı, 1988, 595 s.

## 3. Morfologiya

**Qrammatika anlayışı.** Qrammatika və onun növləri. Qrammatik anlayışlar. Qrammatik quruluş. Azərbaycan dilinin qrammatikasına aid yazılmış tədqiqat əsərləri. M. Kazımbəyin “türki-tatar dilinin qrammatikası” əsəri

**Morfologiya və morfem anlayışı.** Morfologiya və onun növləri. Sözün morfoloji quruluşu. Sözün tərkibi və quruluşu. Morfem, kök və şəkilçi anlayışı. İltisaqi dillərdə kök və əsas anlayışları.

B. Çobanzadənin kök və şəkilçi haqqında fikirləri. Şəkilçi morfemlərin xüsusiyyətləri. Şəkilçilərin növləri. Söz kökünə şəkilçi qoşulduqda baş verən morfonoloji hallar.

**Nitq hissələri.** Nitq hissələrinin təsnifi tarixi. Nitq hissələrinin Azərbaycan dilçiliyində inkişaf tarixi. Müasir Azərbaycan ədəbi dilində nitq hissələrinin təsnifində fərqli dilçilik görüşləri.

**İsim.** İsmin məna növləri. Ümumi və xüsusi isimlər. İsmin quruluşca növləri. İsmin halları. Türkologiyada hal kateqoriyasının inkişaf tarixi. İsmin ümumi və xüsusi qrammatik kateqoriyaları. Azərbaycan dilində cins anlayışı və onun ifadə üsulları haqqında fikirlər. İsmin cümlədə rolu.

**Sifət.** Sifətin qrammatik xüsusiyyətləri. Sifətin məna növləri. Sifətin quruluşca növləri. Sifətin substantivləşməsi və adverbiallaşması. Dərəcə kateqoriyası sifətin əsas göstəricisi kimi. Azərbaycan dilində sifətin dərəcə kateqoriyası haqqında müxtəlif fikirlər. İntensivlik anlayışı.

**Say.** Sayı səciyyələndirən spesifik xüsusiyyətlər. Sayların quruluş xüsusiyyətləri. Sayın mənaca növləri. Sayların mənşəyi. Sayköklü, saymənalı sözlər. Sakramental saylar. Sayların orfoqrafiyası. Sayın substantivləşməsi və adverbiallaşması. Sayın cümlədə rolu.

**Əvəzlik.** Əvəzliyin leksik-qrammatik səciyyəsi, onu digər əsas nitq hissələrindən fərqləndirən cəhətlər. Əvəzliklərin hallanması. Əvəzliyin məna növləri. Əvəzliyin cümlədə rolu.

**Feil.** Feilin əsas nitq hissəsi kimi səciyyəvi cəhətləri. Feilin lüğəvi məna növləri. Feilin quruluşca növləri. Sadə feillər və onların mənşəyi. Düzəltmə feillər: adlardan və feildən düzələn feillər. Mürəkkəb feillər və onların yaranma yolları. Tərkibi və mürəkkəb fei anlayışı. Azərbaycan dilçiliyində mürəkkəb feillərlə bağlı fikirlər. Feilə məxsus spesifik qrammatik kateqoriyalar. Feillərdə təsir kateqoriyası. Feilin növ kateqoriyası. Feilin qrammatik məna növləri. İnkarlıq kateqoriyası. Təsdiq və inkar feillər. Feillərdə tərz kateqoriyası. Tərz kateqoriyası haqqında təzadlı fikirlər. Feillərdə şəxs kateqoriyası. Feilin şəkilləri. Fei şəkillərinin mürəkkəbi, onların məna çalarları. Feilin zamanları və onların üslubi xüsusiyyətləri. Təsriflənməyən feillər. Feilin şəxssiz (təsriflənməyən) formalarının ikili xüsusiyyətləri. Məsdər, feili sifət və feili bağlama tərkibləri.

**Zərf.** Zərf əsas nitq hissəsi kimi. Zərfin quruluşca növləri. Zərfin mənaca növləri. Zərfləşən sözlər. Zərflərdə nisbilik. Zərfin cümlədə rolu.

**Nitq hissələrində keçid prosesi.** Substantivləşmə, adyektivləşmə, adverbiallaşma.

**Köməkçi nitq hissələri.** Köməkçi nitq hissələrinin əsas nitq hissələrindən fərqi. Azərbaycan diliçiliyində köməkçi nitq hissələrinin təsnifi tarixi.

**Qoşma.** Qoşma köməkçi nitq hissəsi kimi, onun digər köməkçi nitq hissələrindən fərqləndirən xüsusiyyətlər. Qoşmaların təsnifi. Qoşmaların mənaca növləri. Sabit, qeyri-sabit, şəkilçiləşən qoşmalar. Qoşma və köməkçi adlar. Qoşmaların orfoqrafiyası.

**Bağlayıcı.** Bağlayıcıların səciyyəvi xüsusiyyətləri. Bağlayıcıların təsnifi prinsipləri və tarixi. İşlənmə xüsusiyyətinə görə bağlayıcıların növləri. Quruluşuna görə bağlayıcıların növləri. Mənşəyinə görə bağlayıcıların növləri. Bağlayıcıların sintaktik vəzifəsinə görə növləri. Bağlayıcıların işlənmə yerinə görə növləri. Bağlayıcı sözlər. Bağlayıcılarda durğu işarələri.

**Ədat.** Ədatın spesifik cəhətləri. Sabit, qeyri-sabit, şəkilçiləşən ədatlar. Ədatların mənaca növləri. Ədatlarda polifunksionallıq. Ədatların orfoqrafiyası.

**Xüsusi nitq hissələri.** Azərbaycan dilçiliyində xüsusi nitq hissələrinin təsnifi haqqında fikirlər( M.Hüseynzadə, A.Qurbanov, Y.Seyidov, Q.Kazımov, B.Xəlilov ). Nida. Nidaların məna və vəzifələrinə görə növləri. Nidalarda durğu işarələri. Nidalarda polifunksinallıq və substanlişmə. Nidaların quruluşu.

**Modal sözlər.** Azərbaycan dilində modallığın ifadə formaları. Modal sözlərin səciyyəvi cəhətləri. Mənşəyinə görə modal sözlərin növləri. Modal sözlərin quruluşu. Modal sözlərin mənaca növləri və cümlədə yeri. Modal sözlərdə polifunksionallıq.

**Təqlidi sözlər.** Təqlidi sözlərin spesifik xüsusiyyətləri. Təqlidi sözlərin yaranma yolları və yazılışı. Təqlidi sözlərin quruluşu və söz yaradıcılığında rolu.

**Qeyri - müəyyən nitq hissələri.** İmperativ sözlər. Ritmik sözlər. Uşaq sözləri.

### Əsas ədəbiyyat


1. Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya, Bakı, “Şərq- Qərb”, 2007, 279 s.
2. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası.I hissə, Bakı, 2007, 280 s.
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası.II hissə, Bakı, 2007, 354
4. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya, Bakı, Elm və təhsil ,2010,398 s.
5. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya, Bakı, Bakı Universiteti, 2011, 367 s.
6. Müasir Azərbaycan dili. II cild, Bakı, “Elm”, 1980, 239 s.


### Əlavə ədəbiyyat


1. Aslanov A. Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar (mənsubiyyət, inkarlıq, kəmiyyət kateqoriyaları), Bakı, 1985, 79 s.
2. Kazımbəy M. Türk tatar dilinin ümumi qrammatikası. (Tərcümə, tədqiq və şərh. İdris Abbasov) Bakı 2017, 1007 s.
3. Çobanzadə B. Türk dili. Bakı, Azərnəşr,1928, 219 s.
4. Mirzəyev H. Azərbaycan dilində fel. Bakı, “Maarif”, 1986, 318 s.
5. Cəfərov C. Nitq hissələrində keçid prosesləri və konversiya. Bakı, 2009, 147 s.
6. Cəlilov F. Azərbaycan dilinin morfonologiyası. Bakı, “Maarif”, 1988.
7. Əlizadə Z. Müasir Azərbaycan dilində modal sözlər. Bakı, “Maarif”, 1965, 146 s.
8. Hacıyev K. Azərbaycan dilində xüsusi nitq hissələri, Bakı, 1999, 164 s.
9. Əsgər İ. Azərbaycan dilində məhsuldarlıq yaradan qeyri-məhsuldar şəkilçilər. Bakı, “Elm və təhsil”, 2015, 137 s.


## 4. Sintaksis

**Sintaksis qrammatikanın bir bölməsi kimi.** Sintaksisin obyekti, predmeti, vəzifələri və dilçiliyin başqa şöbələri ilə əlaqəsi. Sintaktik vahidlər (Söz birləşməsi, cümlə və mətn). Söz birləşməsi və sintaqm anlayışı. Söz birləşmələri və cümlənin komponentləri arasında məna əlaqələri.

**Tabesizlik və tabelilik əlaqələri.** Uzlaşma, idarə, yanaşma əlaqələri. Sintaktik vahidlərin tərtibində rolu olan digər vasitələr.

**Söz birləşmələri.** Azərbaycan dilçiliyində söz birləşmələrinin tədqiqi. Söz birləşmələrinin təsnifi. Ismi birləşmələrvə onların təsnifi. Yanaşma əlaqəli ismi birləşmələr, İdarə əlaqəli ismi birləşmələr. Uzlaşma əlaqəli ismi birləşmələr. Qarışıq tip əlaqəli ismi birləşmələr. Feili birləşmələr. Əsas və asılı tərəflərin ifadə vasitələrinə görə feili birləşmələr. Zərf birləşmələri və onların ifadə vasitələri. Sabit və sərbəst birləşmələr. Sadə və mürəkkəb birləşmələr.

**Cümlə.** Cümlənin əsas əlamətləri. Cümlənin təsnifi. Məntiqi-sintaktik üzvlənməyə görə cümlənin təsnifi. Məqsəd və intonasiyaya görə cümlənin növləri. Cümlənin quruluşuna görə təsnifi. Cümlənin modallığa görə təsnifi. Cümlənin qrammatik və aktual üzvlənməsi.

**Cümlənin baş üzvləri.** Mübtəda və onun ifadə vasitələri. Xəbər və onun ifadə vasitələri. Cümlənin ikinci dərəcəli üzvləri. Tamamlıq və onun ifadə vasitələri. Təyin və onun ifadə vasitələri. Zərflik və onun ifadə vasitələri. Zərfliyin məna növləri. Cümlənin determinant üzvləri. Əlavələr. Cümlədə sözlərin sırası. Söz sırası və cümlə üzvləri sırası.

**Sadə cümlə.** Müxtəsər və geniş cümlə. Təktərkibli və cüttərkibli cümlələr. Təktərkibli cümlənin növləri. Baş üzvlərin iştirakına görə təktərkibli cümlə növləri.Təktərkibli cümlənin quruluş xüsusiyyətləri. Qeyri-müəyyən şəxsli cümlələr. Ümumi şəxsli cümlələr. Şəxssiz cümlələr. Adlıq cümlələr. Bütöv və yarımçıq cümlələr. Üzvlənməyən cümlələr: söz-cümlələr, vokativ cümlələr.

**Sadə cümləni genişləndirən vasitələr.** Həmcins üzvlü cümlələr. Xüsusiləşmiş üzvlü cümlələr: Qoşmalı xüsusiləşmələr. Ara sözlü, bağlayıcılı, dəqiqləşdiricili xüsusiləşmiş üzvlər. Qoşulma konstruksiyalar. Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər. Xitablar. Cümlənin xitablarla genişləndirilməsi. Ara söz və ara cümlələr.Cümlənin ara söz və əlavə konstruksiyalarla genişlənməsi. Feili sifət, feili bağlama və məsdər tərkibləri ilə cümlənin genişləndirilməsi.

**Mürəkkəb cümlə.** Mürəkkəb cümlə anlayışı. Mürəkkəb cümlənin təsnifi. Mürəkkəb cümlənin tərkib hissələri arasında əlaqə tipləri.

**Tabesiz mürəkkəb cümlə.** Tabesiz mürəkkəb cümlənin komponentləri arasında məna əlaqələri. Bağlayıcısız və bağlayıcılı tabesiz mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlənin təsnifi: Birləşdirmə əlaqəli tabesiz mürəkkəb cümlə. Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlə. Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlə. Qoşulma əlaqəli tabesiz mürəkkəb cümlə.

**Tabeli mürəkkəb cümlə.** Azərbaycan dilçiliyində söz birləşmələrinin tədqiqi. Tabeli mürəkkəb cümlədə baş və budaq cümlə, onların yeri. Tabeli mürəkkəb cümlənin komponentlərini əlaqələndirən vasitələr. Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələr: intonasiya, bağlayıcılar, ədatlar, modal sözlər, bağlayıcı sözlər, əvəzliklər, qəlib sözlər. Mübtəda budaq cümləsi və onun tipləri. Xəbər budaq cümləsi və onun tipləri. Tamamlıq budaq cümləsi və onun tipləri. Təyin budaq cümləsi və onun tipləri. Zərflik budaq cümlələri və onun tipləri. Zərflik budaq cümlələrinin təsnifi: tərz budaq cümləsi, dərəcə budaq cümləsi, zaman budaq cümləsi, yer budaq cümləsi, kəmiyyət budaq cümləsi, səbəb budaq cümləsi, məqsəd budaq cümləsi, şərt budaq cümləsi, qarşılaşdırma budaq cümləsi, nəticə budaq cümləsi, qoşulma budaq cümləsi.

**Qarışıq tipli mürəkkəb cümlələr**. Qarışıq tipli tabesiz mürəkkəb cümlələr. Qarışıq tipli tabeli mürəkkəb cümlələr. Qarışıq tipli mürəkkəb cümlələrin tərkib hissələri.

**Mətn sintaksisi.** Azərbaycan dilçiliyində mətn sintaksisinin tədqiqi tarixi.
Mətn və sintaktik bütövlər. Mətn və onun daxili vahidləri, tərkib hissələri. Mətnin kateqoriyaları. Mətnin komponentləri və sərhədlərinin müəyyən edilməsi. Aktual üzvlənmə məsələsi. Komponentlər arasında məntiqi-sintaktik əlaqə üsulları. Komponentləri əlaqələndirən vasitələr. Sintaktik bütövlərin semantikası. Mətnin formalaşma mərhələləri.

**Özgə nitqi və onun verilmə üsulları.** Vasitəli və vasitəsiz nitq. Vasitəsiz nitqdə durğu işarələrinin yazılışı. Sitatlar və onların cümlədə rolu.

**Punktuasiya.** Durğu işarələri və onların əsas funksiyaları. Ayırıcı işarələr və fərqləndirici işarələr.

**Əsas ədəbiyyat**


1. Abdullayev Ə. , Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili , IV cild, Bakı, "Şərq-Qərb", 2007, 422 s.
2. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı,"Aspoliqraf LTD MMC", 2004, 496 s.
3. Xəlilov B. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Adiloğlu" 2017, 427 s.
4. Müasir Azərbaycan dili. III cild, Bakı, "Elm", 1980, 239 s.
5. Novruzova N. Mətn sintaksisi. Bakı, "Təhsil" nəşriyyatı, 2002, 184 s.


**Əlavə ədəbiyyat**


1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: 1998, 281 s.
2. Kazımov Q. Azərbaycan dilində tabeli mürəkkəb cümlənin inkişaf tarixi. Bakı, "Nurlan" 2010, 176 s.
3. Muhəmmədi H. Nəhv elmi: sintaksis. Bakı, "Zərdabi LTD", 2018, 199 s.
4. Müzəffəroğlu T. Müasir Azərbaycan dilində mürəkkəb cümlənin struktur semantikası. Bakı, "Azərnəşr", 2002, 302 s.
5. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı, Maarif, 1963, 340 s.
6. Seyidov Y.M. Qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqədar olmayan sözlər (xitab və ara sözlər). Bakı: ADU, 1958, 75 s.


**Sumqayıt Dövlət Universitetinin Filolofiya fakültəsinin Elmi Şurasının 10.07.2019-cu il tarixli iclasnın (protokol №11) qərarı ilə təsdiq üçün tövsiyə olunmuşdur.**